Akademik Tarih ve Düşünce Dergisi
Published by Winter 2022 / 9-4
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.

# Əxlaqi Və Hüquqi Şüurun Mənayaradıcı İdeyaları

**Gulnare Yusifova***
**ORCID: 0000-0003-0822-0254**

**Xülasə**

"Əxlaqi və hüquqi şüurun mənayaradıcı ideyaları" mövzusunda yazılmış məqalə əxlaqi və hüquq şüurun qarşılıqlı əlaqəsinin dialektikasının izahına həsr olunmuşdur. Məqalədə əxlaqi və hüquqi şüur bir-birindən ayrılmaz şəkildə göstərilmişdir. Əxlaqi və hüquqi şüurun mənayaradıcı ideyalarını izah etmək üçün əvvəlcə, onun strukturunda yönəlişləri və ideyaları, onun tipləri qeyd olunur. Daha sonra mənayaradıcı ideyalar, ölçü, təminatlılıq, tabeçilik, müstəqillik, uzlaşma, həmrəylik, norma, qayda hərtərəfli təhlil olunmuşdur. Məqalədə həm də hüquqi şüurda məntiqlik və məntiqsizlik hərtərəfli işıqlandırılmış və bunları öyrənməyin əhəmiyyəti göstərilmişdir.

**Açar sözlər:** əxlaqi şüur, hüquqi şüur, ideya, ölçü kateqoriyası, hüquqi norma, qayda, hüquqi qanun, məntiq

**Gönderme Tarihi: 30/10/2022** **Kabul Tarihi:28/12/2022**

* *Dosent, Bakı Dövlət Universiteti, Fəlsəfə Doktoru, Bakı -Azərbaycan, g_y_m65@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
YUSİFOVA, G., '' Əxlaqi Və Hüquqi Şüurun Mənayaradıcı İdeyaları'', *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 4, 2022, s. 1853-1867.

# Meaning-Forming Ideas Of Moral And Legal Consciousness

**Gulnare Yusifova***
**ORCID: 0000-0003-0822-0254**

**Abstracts**

This article, written on the title "Meaningful ideas of moral and legal consciousness", is devoted to explaining dialectics of the interaction of moral and legal consciousness. In the article, moral and legal consciousness are shown as inseparable from each other. To explain the meaning-forming ideas of moral and "legal" consciousness, first of all, its directions and ideas in its structure, and its "types" are noted. Then, the substantive ideas, measure, security, subordination, independence, reconciliation, solidarity, norm, order were analyzed comprehensively. The article comprehensively highlights the logic and illogicality in legal consciousness and shows the importance of studying them.

**Kewwords:** moral consciousness, sense of justice, idea, measurement category, legal norm, rule, legal law, logic

**Received Date: 30/10/2022** **Accepted Date: 28/12/2022**

*Associate Professor, Baku State University, Doctor of Philosophy, Baku- Azerbaijan, g_y_m65@mail.ru*

***You can refer to this article as follows:***
YUSİFOVA, G., ‘’ Əxlaqi Və Hüquqi Şüurun Mənayaradıcı İdeyaları’’, *Academic Journal of History and Idea,* Vol. 9, Issue 4, 2022, p. 1853-1867.

## Giriş

Əxlaqi və hüquqi şüurun qarşılıqlı əlaqəsinin dialektikasında onların mənayaradıcı ideyaları mühüm əhəmiyyət kəsb edir. Bu ideyaları izah etməzdən əvvəl qeyd etmək lazımdır ki, ictimai şüurun bu iki forması cəmiyyətdə insanların fəaliyyətinin tənzimlənməsində əvəzsiz rola malikdir. Əxlaq və onun inikası olan əxlaqi şüur, həm də hüquq və onun inikası olan hüquqi şüur cəmiyyətdə insanların davranışının norma və qaydalarını nizamlayır. Əxlaqi şüur bu vəzifəni yerinə yetirərkən adət-ənənəyə, ictimai rəyə və qınağa, hüquq və hüquqi şüur isə məcburiyyət aparatına, güc strukturlarına əsaslanır.

Əxlaqi və hüquqi şüurun hər ikisi cəmiyyətdə insanların davranış norma və qaydaları ilə sıx bağlı olduğunu görə onların mənayaradıcı ideyalarını da birlikdə araşdırmaq məqsədəuyğundur. Sözü gedən mənayaradıcı ideyalar silsiləsində – ölçü; təminatlılıq, tabeçilik, müstəqillik, uzlaşma, həmrəylik və norma başlıca yer tutur. Buraya həm də məntiqilik və məntiqsizliyi əlavə etmək lazımdır.

## Problemin təhlili

Əsas mənayaradıcı anlayışlar əxlaqi və hüquqi fikrin canlı hüceyrəsidir, onlar ictimai həyat hadisələrini, münasibətləri insanların hərəkəti və davranışını əks etdirir. Beləliklə də fikir ilə reallığın müqayisə kanalları rolunu oynayır. Digər tərəfdən bu kateqoriyalar hər bir ayrıca xassənin ümumilikdə gerçəkliyə aid edilən universal tərəf isə əlaqələrini ifadə edən məna vahidləridir. Buna görə onlar həmin şüur formalarının universallığının səciyyələri kimi başa düşülməlidir.

Əxlaqi və hüquqi ideyalar, əxlaqi münasibətlərin və hüquqi varlığın refleksiyası əsasında onunla "təmas"ı təmin edir. Odur ki, onları yalnız anlayışlı təfəkkürün formal məntiqi vasitələri kimi deyil, həm də məzmun baxımından araşdırması zəruridir. Daha doğrusu, əxlaqın və hüququn bilavasitə özünün məntiqinə müraciət olunmalıdır. Çünki kateqoriyalar rasional fikrin dəqiq fərqləndirilən formaları və səviyyələridirsə, əxlaqi və hüquqi mənayaradıcı ideyalar, həmin şüur formalarının rasional və irrasional məqamlarının, anlayışlı-kateqoriyalı və hissi qatlarının sintez olunduğu məna vahidləridir. Onlar əxlaqi və hüquqi şüurun bütövlüyünü ifadə edir, onun dayaqları, məna sxemi, daxili və xarici məzmununu təcəssümü rolunu oynayır. Bu ideyalar əxlaqi və hüquqi şüurun digər tərəflərinə xas olmayan aşağılakı xassələrə malikdir: a) özü-özlüyündə aşkardır, yəni rasional yolla əldə

olunmur, həmişə əxlaqi və hüquqi şüura əvvəlcədən məxsus olan təbii və aradan qaldırılması mümkün olmayan xassələr kimi çıxış edir və reallığın kəskin əxlaqi və hüquqi hiss olunması hallarında aydın surətdə üzə çıxır; b) onlar öz-özü üçün kifayətedicidir, yəni onların əsaslarını axtarmağa heç bir ehtiyac yoxdur; c) onlar universaldır, yəni sosial həyatın bütün müxtəlifliyinə nüfuz edərək, onu bütövlükdə ifadə edirlər; ç) proqram xarakteri daşıyır; d) sabitləşdirici rol oynayır, yəni reallığın mədəni-tarixi və ümumbəşəri, mütləq mənasını əks etdirir. Nəhayət, onlar real cəmiyyətlərin həmişə uyğun olan mənəvi-mədəni invariantlarıdır (yəni sabit keyfiyyətlərdir)[1]

Əxlaqi və hüquqi şüur ideyalarının iki tipini fərqləndirmək olar. Onlardan bəziləri – bu şüur formalarının təbiətini ifadə edir, yəni onun məzmun zənginliyinin və məntiqinə uyğun ifadəsinin mənbəyidir. Biz bu ideyaları öyrənərkən, əxlaqın və hüququn təbiətini, onun universallığında başa düşürük. Digər sistemyaradıcı ideyalar əxlaqi və hüquqi şüurun məzmun zənginliyinin, onun mədəni-tarixi formalarının məcmusudur. Biz onları öyrənərkən əxlaqın və hüququn mahiyyətini onun öz konkretliyində dərk edirik. Məsələn, qədim Çin mənəvi mədəniyyətinin daşıyıcıları üçün “dao” ideyası, klassik alman fəlsəfəsi nümayəndələri üçün “azadlıq”, orta əsr rus fikri üçün «həqiqət» ideyası, müasir Qərb mütəfəkkirləri üçün «müdafiə» və «təhlükəsizlik» ideyaları bu qəbildəndir.

Əxlaq və hüquq ideyalarının, bu şüur formalarında müəyyənedici yeri bununla şərtlənir ki, onların məzmun müxtəlifliyi reallıqdakı hər şeyi əhatə edən meyar kimi çıxış edir. Yəni həmin ideyaların mahiyyətini bir neçə ifadə ilə çatdırmaq mümkün deyildir. Onları yalnız əxlaqi və hüquqi şüurun məzmunu və forma təhlilinin bütün həcmi çərçivəsində açıqlamaq olar. Əslində bu ideyalar həm əxlaqi və hüquqi şüurun predmetidir, həm onların spesifikliyinin göstəricisi, həm də onların məzmunu ilə ekvivalentdir. Həqiqi əxlaqi və hüquqi şüurda ziddiyyət yoxdur, burada daxili formal-məntiqi uzlaşma, qapalılıq faktiki vəziyyətin inikası deyil, yalnız əxlaqi və hüquqi şüurun məntiqinin spesifik yönəlişidir. Real əxlaq və hüquq sistemi isə daxilən ziddiyyətlidir, açıqdır, özündə qeyri-müəyyənlik məqamını ehtiva edir. Lakin məhz hüquq ideyası ona bütövlük verir. Bu bütövlük dünyagörüşü səviyyəsində əxlaqi və hüquqi şüurun bütün məna vahidləri üçün təməl rolunu oynayır. Hüquq ideyasında dörd məqam qovuşur: hüquqi şüur, hüquqi hiss, hüquqi ideal və hüquqi reallıq. Əxlaq ideyasında da dörd məqamı ayırmaq olar: əxlaqi şüur, əxlaqi hiss, əxlaqi ideal və əxlaqi reallıq.

[1] F. Hayek, *Hüquqi qanunvericilik və azadlıq*, (?), Bakı 2000, s. 292.

Əxlaqi şüur və hüquqi şüur onların subyektinin öz dəyərinə hərtərəfli və dərin yanaşması kimi çıxış edir. Buna görə də onun əhəmiyyətinin dərki, əxlaq və hüquq ideyasının bütün məzmunu ilə birlikdə nəzərdən keçirilməlidir. Digər tərəfdən, əxlaqi və hüquqi şüur hər bir konkret aktda, hərəkətdə, münasibətdə əxlaqın və hüququn bilavasitə təzahürü kimi başa düşülməlidir. Əxlaqa və hüquqa belə birbaşa yanaşma, ilk növbədə, onların özündə və məntiqi üzrə rasional surətdə rəsmiləşir, lakin yalnız onunla məhdudlaşmır.

Əxlaqi və hüquqi hisslər əxlaqi və hüquqi vəziyyəti və bütövlükdə əxlaq və hüququ bilavasitə əhatə edən formadır. Başqa sözlə, onlar hüququn və əxlaqın şəksizliyi, aşkarlığı deməkdir. Məsələn, biz ədalət hissindən, ölçü hissindən və s. söz açarkən, birinci növbədə onların hissi predmetliliyini nəzərdə tuturuq. Biz hissiyyatın predmetinə deyil, təbiətinə müraciət etdikdə, məlum olur ki, onlar sadəcə əxlaqı və hüququ təzahür etdirmir, onu bütöv şəkildə götürülən, çoxşaxəli, müstəqil əxlaqi və hüquqi fakt kimi əhatə edir. Fəlsəfi baxımdan əxlaqi və hüquqi hisslər bu şüur formalarının məzmununun xülasəsi, onun bütövlüyü, həqiqiliyi və tamlığı deməkdir. Məhz buna görə də demək olar ki, onlar əxlaqi və hüquq varlıq kimi insana xas olan keyfiyyətlərdir. Bu hisslərdən kənarda əxlaqi və hüquqi şüurun məntiqi yalnız formal xarakter daşıyır.

Əxlaqi və hüquqi ideal əxlaq və hüquq ideyasının məzmununda əsas yer tutur. Əxlaqi və hüquqi idealın məzmunu təsadüfilikdən və fərdlikdən təmizlənmiş real əxlaqi və hüquqi münasibəti, hərəkəti, motivi və ya qiyməti bildirir. O, əxlaqi və hüquqi həyatın tam mükəmməl deyil, optimal təcəssümünü ehtiva edir. Məhz bu səbəbdən hüquqi qərarlar çox vaxt adi əxlaqlikdən uzaq olur və müxtəlif real variantlar arasında sırf rasional seçim proseduru kimi çıxış edir. Sözügedən idealın təcəssümünün səciyyəvi nümunəsi təbii hüquq ideyasıdır. Əxlaqi və hüquqi ideal arzuolunan ictimai vəziyyətin gerçəkliyə qarşı qoyulan təcəssümündən daha çox, real proseslərin məntiqinin ifadəsi olduğundan, özünəməxsus əxlaq və hüquq "ruhu" kimi konkret əxlaqi və hüquqi vəziyyətlərin və proseslərin rasional qiymətləndirilməsinin fəal komponentinə çevrilir.[2]

Əxlaqi və hüquqi reallığa əxlaq və hüquq ideyası baxımından kimi yanaşarkən aşağıdakılar nəzərdə tutulur: mövcud əxlaq və hüquq təcrübəsi, əxlaq və hüquqi münasibətləri yalnız əxlaq və hüquq ideyasının konkret-tarixi məzmununu obyektiv surətdə şərtləndirmir, həm də bu məzmunu təşkil edir. Hüquq ideyasının bu məqamı yuridik-pozitivist yanaşmanın əsasında duraraq, belə bir ehtimalla bağlıdır ki, hüquq öz sosial yönümünə və əhəmiyyətinə

[2] *Interaction of forms of social consciousness,* Ed. Chugaeva A.Ya, Moscow State University, Moscow 1964, p. 190.

görə, əxlaqla, dini, yaxud siyasi yönəlişlərlə uzlaşıb-uzlaşmamasına səviyyəsindən asılı olmayaraq, həmişə mövcud vəziyyət olaraq qalır.

Əxlaqın və hüququn dəyər təbiəti, ilk növbədə, cəmiyyətin və insanın sosial-mənəvi dəyərlərinin məcmusu halında dərk olunması ilə bağlıdır. Əslində əxlaq və hüququn dəyər xarakterinə diqqət yetirildiyi andan etibarən sosial dünya sanki ikiləşir: a) əxlaqın və hüququn ruhuna, təbiətinə cavab verənlər və b) əxlaqi və hüquqi şüura və zidd olanlar, yəni qeyri-əxlaqi və qeyri-hüquqi xarakter daşıyanlar bir birindən fərqləndirilməyə başlanır. Bu fikirdən belə mühüm nəticə doğur: yalnız əxlaq və hüquq yalnız əxlaq və hüquq əxlaqi yuridik-pozitivist yönəliş sahəsində özümdədəyər kimi məna kəsb edir və ideya baxımından əsaslıdır. Əks təqdirdə pozitivizm hakimiyyətin mümkün istibdadının, güc amirliyinin qanuniləşdirilməsi, nəzəri cəhətdən əsaslandırılması olardı. Hüququn dəyər təbiətinin qəbul edilməsi, təbii hüquq ideyalarının aradan qaldırmağa, hüququn mütləq həqiqiliyinin mümkünsüzlüyünü və əsassızlığını izah etməyə imkan verir. Təbii hüquq nəzəriyyələri real hüquqa ideya müxalifəti, əxlaqlı yönəliş olmayıb, onu dəyər hüquqi reallığı kontekstində ifadə edir. Onlar elmi-pozitivist nəzəriyyələrlə müqayisədə reallığa daha yaxındır, çünki ictimai dəyərlinin, məqsədyönlünün, faydalının, layiqlinin, ictimai zərərdən, ləyaqətsizdən, dağıdıcından fərqini əks etdirir. Onlar reallıqda mütləq məqamın tanınmasına söykənən nəzəriyyələrin əksinə olaraq, bütün həqiqi olanların nisbi dəyərliliyinə əsaslanır.

Əxlaqi və hüquq şüurda ölçü və forma ideyası da xüsusi əhəmiyyət kəsb edir. Ölçü ideyasında əxlaqın və hüququn təşkiledici, tənzimləyici-qiymətləndirici yönümü öz əksini tapır. Bu ideyanın məzmunu əxlaqın və hüququn təşəkkülünün bütün müxtəlifliyini ehtiva edir. Onun köməyi ilə həm də əxlaq və hüquq formasının hərəkətini və inkişafını səciyyələndirərək, əxlaq və hüququ bütöv halda fikirdə yenidən qurmaq olar. Ölçü ideyasının mənayaradıcı xarakteri, onun əxlaq və hüquqi ölçü timsalının təhlili vasitəsilə daha aydın görünür. Bu ideya həm də əxlaqi və hüquqi ölçünün meyarları kimi çıxış edirlər.

Ölçü ideyası əxlaqın və hüququn təbiətinin digər mühüm səciyyəsi olan normativ tərəfini ifadə edir. Hüquqi ölçü dindəki kamil idealların və insana verilən "son" tələblərin normativliyi, əxlaqdakı nümunələrin normativliyi, yaxud vərdişlərin əmələ gətirdiyi kortəbii-kütləvi, eynitipli davranış kimi stereotiplərin normativliyi, habelə istehsal fəaliyyəti sahəsindəki standartların, texniki planların normativliyi demək deyildir. Əxlaqi və hüquqi normativlik, bir tərəfdən, konkret məzmundan asılı olmamaq mənasında formaldır, digər tərəfdən isə mövcud proses və hərəkətlərlə məhdudlaşma və real imkan kimi çıxış etməsi mənasında realdır.

Əxlaqi və hüquqi ölçünün ifadə formalarına həm də təhlükəsizlik, müdafiə, təminatlılıq, tabeçilik, müstəqillik, uzlaşma, həmrəylik, habelə reallığa xas olan digər məqamları aid etmək olar. Bu ideyalarda ehtiva olunan mənanı əxlaqi və hüquq şüurunun özünün vasitələri ilə araşdırmağa çalışaq.

Təhlükəsizlik subyektin insanın əhatəsində və bütövlükdə cəmiyyətdə təşəkkül tapmış və qəbul olunmuş əxlaqi hüquqi vəziyyətinin pozulması təhlükəsinin bilavasitə mövcud olmaması kimi başa düşülməlidir.[3] Hər bir ölçü kimi o da daimi kənara çıxmalarla və müşayiət olunur. Buna görə də həmin pozuntular normal əxlaqi və hüquqi vəziyyətin bərpası səyləri ilə bağlıdır. Təhlükəsizliyin müsbət ifrat həddini insanlar üçün təhlükəsizlik və təhlükə fikrinin seçim, risk, qeyri-müəyyənlik vəziyyətləri ilə bağlı olmayan sosial vəziyyət təşkil edir. Təhlükəsizliyin mənfi ifrat həddi subyektin müstəsna surətdə özbaşına, norma və yönəlişlərin əksinə hərəkət etdiyi hallarda cəzasız qalmasıdır. Təhlükəsizlik ölçüsü dəqiq göstəriciyə malikdir. Bunlar obyektiv mənada – təşəkkül tapmış və qəbul olunmuş ictimai qayda, subyektiv mənada – inam, sakitlik, sosial həyatın nizamlılığı hissi və sairdir[4]

Müdafiə ideyası**,** bir tərəfdən, cəmiyyət tərəfindən verilən və insanın qoruyub saxladığı ləyaqət və şərəf kimi əxlaq və hüququn reallaşma imkanını ifadə edir. Digər tərəfdən, o, cəmiyyətin əxlaq və hüquq ölçüsünün pozulmasını ideya və maddi baxımdan deyil, məhz sosial baxımdan, yəni subyektin əxlaqi və hüquqi vəziyyətini bərpa etməklə, yaxud konkret əxlaqi və hüquqi münasibətlərini təkrar istehsal etməklə əvəzləmək qabiliyyətini səciyyələndirir.

Təminatlılıq dedikdə mövcud əxlaq və hüquq münasibətlərinin, habelə insanların əxlaqi və hüquqi forma kəsb edən istək və səylərinin reallaşması üçün tələb olunan əxlaqi və hüquqi vasitələrə və şərtlərə malik olması başa düşülməlidir. O, gündəlik təcrübədə əxlaqın və hüququn həyata keçirilməsinə yönələn səylərin ölçüsündən asılı olmayaraq, onun təmin edilməsi göstəricisidir.

Tabeçilik ideyası subyektin təşəkkül tapmış əxlaqi və hüquqi qaydalardan, səlahiyyətli insanların iradəsindən asılılığının konkret hədlərinin mövcudluğunu əks etdirir. O, həm də əxlaq və hüquq subyektinin özünü məhdudlaşdırma qabiliyyətinin nəticəsidir. Beləliklə də o subyektin əxlaqi və hüquqi vəziyyətini cəmiyyətdə tərəfindən verilmiş, habelə onun özü tərəfindən qazanılmış, yaxud əldə olunmuş mövqe baxımından səciyyələndirir.

---

[3]Parviz Firudin Oqlu Kazimi, Islamov Islam Ahmedaqa Oqlu, Yusifova Gulnare Yusif Qizi, "Philosophical view on information theory (The path from the divine to the digital world)", *Technium Social Sciences Journal,* 32, 2022, s. 724-730.

[4] I.A. Ilyin, *On the essence of legal consciousness,* (?), Moscow 1994, p. 235.

Müstəqillik necə qəbul edilməsindən asılı olmayaraq, əxlaqi və hüquqi münasibətlərin, vəziyyətlərin və sosial nemətlərin müstəsna surətdə, yaxud əsasən insanın özünün səyləri ilə şərtlənməsinin dərki kimi ifadə oluna bilər. O, həm də əxlaq və hüquq subyektinin şəraiti, başqalarının iradəsini və gücünü özünə tabe etmək, konkret vəziyyətdə zəruri və önəmli olduqda özü üçün sərt qayda və qanun vermək qabiliyyətinin ölçüsüdür.

Uzlaşma ideyası konkret əxlaqi və hüquqi vəziyyətdə müxtəlif iradələrin, səylərin, tələblərin və normaların bir-birilə uyğunluğunu səciyyələndirir. O həm də mövcud fərqlərin, yaxud ziddiyyətlərin barışdırılmasının zahiri forması kimi çıxış edir. Bunlardan əlavə, o əxlaqi və hüquqi qaydanın, münasibətin, əxlaqi və hüquqi hərəkətin məcburiliyinin qəbul edilməsidir.

Həmrəylik əxlaqi və hüquqi həyatın xarici və daxili tənzimləyicilərinin dərin əlaqəsinin, sosial institutların hərəkətlərinin cəmiyyətin və ayrı-ayrı insanların mənəvi vəziyyətinə yönəlməsinin özünü göstərdiyi yüksək əxlaqi və hüquqi vəziyyətdir. Həmrəylik haqqında fikirdə, bir tərəfdən, iddia olunur ki, insanların həyatının mənəvi əsasları cəmiyyətin sosial əhəmiyyətli məqsədinə çevrilmişdir. Digər tərəfdən, həmrəyliyin dərki şəxsiyyətin və cəmiyyətin bir-biri ilə qarşıdurmadan imtina etdiyini göstərir. Bütün bu məqamlar məcmu halında sosial reallığın əxlaqa və hüquqa uyğunluğu haqqında təsəvvür yaradır. Sonuncu anlayış sadəcə mövcud normalar və hökmlər baxımından konkret hərəkətlərin, yaxud münasibətlərin mümkünlüyü, yaxud uzlaşması kimi deyil, həm də əxlaqi və hüquqi varlığın hər hansı hərəkətin və münasibətin əxlaqi və hüquqi gerçəklik məqamına çevrilməsi imkanının etiraf edilməsi kimi çıxış edir.[5]

Əxlaqi və hüquqi şüurun mənayaradıcı ideyaları içərisində qayda xüsusi rola malikdir. Yuxarıda qeyd olunan ölçü əxlaqi və hüquqi həyatın dinamikasını əks etdirdiyi halda, qayda ideyası, əxlaqa və hüquqa dair fikri, müəyyən ümumi struktur, cəmiyyətin və onun əxlaq və hüquq sisteminin mövcud keyfiyyəti ilə bağlayır. Qayda əxlaqi və hüquqi reallığın məntiqi sxemini təşkil edir. Lakin o strukturla eyniləşdirilə bilməz, hərçənd hər bir struktur özündə nizamlılıq məqamını nəzərdə tutur. Qayda strukturun möhkəmliyinin, formal müəyyənliyinin səciyyəsi, onu təşkil edən element və əlaqələrin aydınlığının və dəqiqliyinin göstəricisidir.[6] Kortəbii surətdə yaranan sosial strukturlar üçün qayda xarakterik deyildir, hərçənd o, burada da aşkar oluna bilər. Söhbət sosial strukturların yaranmasından, yaxud təkrar istehsalından getdikdə, qayda tələbi sadəcə əhəmiyyət kəsb etmir, həm də daha yüksək mənaya malikdir.

[5] E.A. Lukasheva, *Law, morality, personality,* (?), Moscow 1986, p. 264.
[6]Parviz Firudin Oqlu Kazimi, Nigar Aliagha Gizi Guliyeva, ''The concept of reliable information on the global network in times of crisis'', *Technium Social Sciences Journal,* 30, 2022, p. 742.

Ümumilikdə sosial qayda yalnız əxlaq və hüquq forması çərçivəsində mümkündür. Bu sistemdə hüquqi forma özünə hökm etməyə meyllənir və xarici formaya çevrilir. Formanın xarici xarakteri sosial həyatda onu fəal halıdır. Qayda ideyasında təzahürlərin keyfiyyət xarakteristikası, yalnız onların tamda birləşməsi halında önəm əldə edir, halbuki ölçü ideyasında keyfiyyət öz-özlüyündə hər bir hüquqi təzahürün mühüm səciyyəsi deməkdir. Qayda sosial reallığın universal xarakteristikası olduğundan, bütövlükdə hüququn universallığında üzə çıxır. O əxlaq formasında adət-ənənəyə və ictimai rəyə əsaslanır.[7]

Qayda ölçünün formalarından biridir. Bu mənada başa düşülən forma ümumiyyətlə əxlaqı və hüquqi həyatın harmoniyası, həm də konkret münasibətin, aktın ahəngdar vəziyyəti kimi çıxış edir. Harmoniya sadəcə konkret ölçüyə malik olmayan, həm də bütün qalanlara uyğun olan təzahürlərin daxili əlaqəsinin spesifik ifadəsidir. Hər bir əxlaqi və hüquqi akt, hərəkət, yalnız konkret şərtlərə və vəzifələrə uyğun olmamalı, həm də həmin konkret təzahürləri bütöv tam halında görməyə imkan verməlidir. Əxlaq və hüquq qaydası həm də reallığın estetik təşkilinə uyğundur və sonuncu, qayda üçün müstəsna dərəcədə önəmlidir.

Qayda universaldır, sosial zərurəti ifadə edir, onda spesifik əxlaqi və hüquqi qanunauyğunluq əks olunur. Bu, bir tərəfdən, onu nəzərdə tutur ki, elementar qaydada təsadüfilik olsa da, bütövlükdə qayda təsadüfi deyildir, onun özü və optimallığının dərəcələri obyektiv meyarlara malikdir. Digər tərəfdən, qaydanın zəruriliyi subyektiv xarakter daşıyır, çünki sosial reallığa əxlaqi və hüquqi iradə və norma kimi təqdim olunur. O, bütövlükdə ictimai münasibətlərdə kortəbiiliyin və şüurlu əxlaqi və hüquqyaratmanın mürəkkəb uzlaşmasının nəticəsidir.

Həm konkret münasibətlərin, məqsədlərin müəyyən məcmusuna tabeçiliyi, həm də müvafiq şərt, vasitə və hazır formaların mövcudluğu baxımından nəzərdən keçirilən qayda əxlaqi və hüquqi həyatın mütəşəkkilliyi kimi başa düşülməlidir. Əxlaqın və hüququn mütəşəkkilliyinin qəbul olunması, bir tərəfdən, müvafiq hakimiyyət strukturlarının mövcudluğunu və onların fəaliyyətinin tənzimləmə, dəyər yönümü və ideya formalaşdırıcı təsir sistemləri ilə təmin olunmasını nəzərdə tutur. Digər tərəfdən, əxlaqın və hüququn mütəşəkkilliyi müəyyən əxlaqi və hüquq münasibətlərə daxil olmaq və onlardan çıxmaq, məsuliyyət daşımaq və xüsusi səy olmadan cəmiyyətdə, yaxud konkret sosial təbəqədə qəbul olunan adət və stereotiplər üzrə yaşamağı tələb etmək üçün real və əlçatan imkan kimi çıxış edir. Qayda fikri əxlaqi və hüquqi səlahiyyətlərin və vəzifələrin həqiqi dəyərinin, cəmiyyətin

[7] S.S. Alekseev, *Philosophy of law,* (?), Moscow 1997, p. 129.

müəyyən orqanlarının və insanların aşkar əksəriyyətinin şəxsində mövcud əxlaqi və hüquq münasibətlərin təkrar istehsal edilməsi ilə bağlıdır, O, habelə mənfi sosial proseslərə, hərəkətlərə, hallara müqavimət göstərməyə hazır olmaq ilə əlaqəlidir. Qayda ideyası əxlaqi və hüquqi həyatın keyfiyyət vəziyyətini əks etdirir. Sabitlik, etibarlılıq, məqsədəuyğunluq, perspektivlilik və ictimai vəziyyətin digər səciyyəvi keyfiyyətləri ictimai və fərdi əxlaqi və hüquq şüur tərəfindən həssaslıqla dərk olunur. Cəmiyyət üzvlərinin konkret əxlaq və hüquqları yalnız qayda mövcud olduqda, əxlaqi və hüquqi üsulla həyata keçirilir. Əks halda əxlaqi və hüquqların realizəsi zorakı və təsadüfi xarakter daşıyır. Mütəşəkkil birgəyaşayış olan əxlaqi və hüquq qayda reallığın köklü xarakteristikasına çevrilir.[8]

Əxlaq və hüquqda zahiri forma prinsipial əhəmiyyət daşıdığından, qayda labüd surətdə nizamlılıq kimi çıxış edir. Nizamlılıq, sosial strukturların əxlaq və hüquq elementlərinin müstəqil əhəmiyyət daşıdığı dayanıqlı, rasional müəyyən, və birmənalı asılılıqlar deməkdir. Söhbət əxlaqi və hüquqi fəaliyyətdən getdikdə o, mütləq nizamlı olub, əxlaqi və hüquqi tələblərin və yönəlişlərin realizəsi vəzifəsi ilə bağlı olan hərəkətlərin və mərhələlərin ardıcıllığı kimi çıxış edir. O həm də əxlaqi və hüquqi faktın, vəziyyətin və ya münasibətin, yaxud normanın elementlərinin əxlaqi və hüquqi vasitələrlə müəyyən olunan aydın və qəti əlaqəsi, sosial məqsədləri reallaşdırmağın ayrılmaz və spesifik üsuludur. Konkret subyekt nəzərdə tutularkən onun əxlaqi və hüquqi fəaliyyətinin nizamlılığı dəqiq müəyyən olunmuş və məhdud hüquqi səlahiyyət kimi özünü göstərir. Əxlaqi və hüquqi münasibətlərin və hərəkətlərin, dövlət orqanlarının və aktlarının əvvəlcədən reallaşdırılmış və şərtləşdirilmiş, dəqiq müəyyən olunmuş nizamlılığının mövcudluğu, əxlaqi və hüquqi qaydanın immanent xassəsidir. Onun mövcud olmaması bu və ya digər qərar və hərəkətlərin əxlaqi və hüquqi məzmununun qiymətləndirilməsində qeyri-müəyyənliyə gətirib çıxarır. Bu da öz növbəsində, məqbul və məqsədəuyğun, hüquqauyğun və faydalı, zəruri və arzuolunan arasında sərhədləri silir. Belə nizamlılığın önəminin aşkar edilməsi nəticəsində əxlaqın və hüququn qanuniləşmiş formalara meyilli olduğu aydınlaşır. Qaydanın belə dərki, əxlaqi və hüququ şüur üçün spesifikdir və onun inkişaf etməsinin, əxlaqi, dini, siyasi səciyyəli, kənar mülahizələrdən "təmizlənmə"sinin ifadəsidir.[9]

Əxlaq və hüquqi şüurun mənayaradıcı ildeyaları sırasında əxlaqi və hüquqi şüurun məntiqi anlayışı da mühüm əhəmiyyət kəsb edir. Bu anlayışa müraciət etməliyik ki, zərurəti aşağıdakı məqamlarla bağlıdır. Birincisi, əxlaqi və hüquqi şüurun məzmunu xaotik surətdə

[8] F.Y. Samandarov, *Legal awareness and criminal law creativity*, (?), Baku 1996, p. 280.
[9] E. Yu. Soloviev, *Kant: complementarity of morality and law*, Nauka, Moscow 1992, p. 216

formalaşmır, mütəşəkkil xarakter daşıyır. İkincisi, o, əxlaqi və hüquqi şüur üçün spesifik surətdə təşkil olunmuşdur. Üçüncüsü, əxlaqi və hüquqi şüurun məzmununun formalaşması bəzi qanunauyğunluqlara tabedir, onun bütün elementlərinin məcmusu isə zəruri və davamlı xarakter daşıyır. Bu və ya digər əxlaqi və hüquqi proseslər, hadisələr və hərəkətlər yalnız əxlaqi və hüquqi şüurun məna sxemi, çərçivəsi daxilində zəruri, yaxud təsadüfi kimi qiymətləndirilə bilər. Əxlaqi və hüquqi şüurun məntiqi üç səviyyənin: forma, məzmun və məna səviyyələrinin vəhdətidir. Əgər əxlaqi və hüquqi şüur müstəsna surətdə rasional və tam formal proses olsaydı, onun məntiqi yalnız formal məntiq vasitələri ilə üzə çıxarıla bilərdi. Lakin belə ehtimal yanlışdır. Əxlaqi və hüquqi şüurun məntiqinin nəzərdən keçirilməsi onun haqqında daha ətraflı təsəvvür yaratmaq imkanı verir. Burada məntiqi məzmun iki aspektdə açıqlana bilər. Birinci aspekt əxlaqi və hüquqi şüurun məna vahidlərinin məzmununun dəyişməsinin qanunauyğunluqları ilə bağlıdır. Bu qanunauyğunluqlar dialektik məntiq tərəfindən təsvir olunur. İkinci aspekt, əxlaqi və hüquqi anlayışların ilkin təməl xarakterli ideyaların müəyyən məcmusundan asılılıqlarının təhlili ilə bağlıdır. Məntiqin məna səviyyəsinə müraciət edilməsi yalnız fəlsəfi tədqiqatlar üçün səciyyəvidir. Əxlaqi və hüquqi fikrin ideya quruluşu, refleksiv təfəkkürün məntiqi, əxlaqi və hüquqi varlığın mədəni gerçəklikləri problemləri, məhz sonuncu səviyyədə daha önəmli və təsirlidir. Əxlaqi və hüquqi şüurun məntiqi hərəkətə sövq etmə və hərəkətlərin praktik surətdə qiymətləndirilməsi ilə də bağlıdır. Əxlaqi və hüquqi fikrin hərəkətə gətirilməsi mexanizmlərinin üzə çıxarılması əxlaqi və hüquqi şüurun məntiqinin təbiəti və xüsusiyyətləri sualını dəqiq cavablandırmaq deməkdir.

Əxlaqi və hüquqi şüurun məntiqi, sosial hərəkət və münasibətlərin məntiqinin inikasıdır, yəni teleoloji xarakter daşıyır. Bu, o deməkdir ki, onun əsasında məqsədli yönəlişlərin müəyyən məcmusu durur. Sonuncu anlayış sosial vəziyyətlərin qiymətləndirilməsinin, qiymətlərin ifadəsinin, qərarların qəbulunun məqsədi və konteksti xarakterini əks etdirir. Bu məqsədli yönəlişlər proqram xarakteri daşıyır. Onların seçimi müstəsna dərəcədə rasional proses olsa da, cəmiyyətin həyatının bir çox mədəni-tarixi amillərindən asılıdır. Əxlaqi və hüquqi şüurun məntiqinin məqsədli yönəlişlərinə reallığın aşağıdakı səciyyələri aid edilə bilər: a) insanların bu və ya digər əxlaqi və hüquqi prinsiplərinin, ideyalarının və əqidələrinin başlıca əhəmiyyətinin birlikdə qəbul olunması; b) əxlaqi və hüquqi varlığın öz hərəkətlərində, meyllərində və vəzifələrində ictimai dəyərlərlə ziddiyyətlərdən qaçmaq, başqa adamlarla fikir ayrılıqlarından çəkinmək qabiliyyəti; c) ayrıca vəziyyətdə ağlabatan əxlaqi və hüquq məqsədlər naminə təkidli olmaq, yaxud onlardan imtina

edilməli məqamları müəyyənləşdirmək qabiliyyəti; ç) sadəcə ümumi razılıq yolu ilə deyil, barışıq və anlaşma əsasında insanların səylərinin birləşdirilməsi imkanı.

Ümumilikdə götürdükdə əxlaqi və hüquqi şüurda məntiqsizlik məqamının tam aradan qaldırılması mümkün deyildir. Formal-məntiqi sxemlərdə məntiqsizlik, fikrin gedişini pozan yolverilməz səhv kimi başa düşülür. Əxlaqi və hüquqi şüurun teoloji məntiqində məntiqsiz qismində təsadüfi çıxış edir. Lakin məlum olduğu kimi, təsadüfilik gerçəklik məqamıdır. Yəni onu yalnız proseslərin və hərəkətlərin müəyyən məntiqi kontekstində qiymətləndirmək mümkündür. Digər tərəfdən, yalnız sosial həyatda təsadüfinin təbiətinin və şərtlərinin dərk olunması, əxlaqi və hüquqi həyatın həqiqi mənzərəsini verə bilər. Bu onunla bağlıdır ki, təsadüfilik məqamı olmadan hadisələrin həqiqiliyi mövcud deyildir .[10]

Əxlaqi və hüquqi şüurun məntiqi strukturunu nisbətən az sayda nəzərə çarpan və rasional dərk olunan ümumi əsaslardan və prinsiplərdən törəmə kimi təsəvvür etmək olar. Onların məcmusu bilavasitə əxlaq və hüquq ideyasından qaynaqlanır. Əxlaqi və hüquqi şüurun məntiqi kontekstində əxlaq və hüquq ideyası onun rasional mahiyyəti kimi çıxış edir. Onun faktiki mahiyyəti həmişə, hər bir şəraitdə aydındır, lakin bu aydınlığın səviyyəsi fəaliyyət göstərən subyektin özü üçün daha yüksəkdir. Nəzərdən keçirilən aspektdə əxlaq və hüquq ideyası məhz əxlaqi və hüquqi fikrin bütün quruluşunun son rasional əsası kimi mənalandırılır. Yalnız o, sosial münasibətlərin və hərəkətlərin əxlaqi və hüquqi qiymətləndirilməsinin istənilən aktının ilkin rasional problemi kimi çıxış edir.

Əxlaqi və hüquqi şüurun məntiqinin əsasını onların düzgün və ya səhv olduğunun rasional fərqləndirilməsi, təsbiti, əsaslandırılması və mühakiməsi (qiymətləndirilməsi) təşkil edir. Bu onunla izah edilir ki, düzgünlük probleminin həlli, reallıq haqqında əxlaqi və hüquqi fikrin məzmununun bütün elementlərini birləşdirməyə imkan verir. O, habelə bütün əxlaqı və hüquqi qiymətlərin və normaların əsasında durur. Hüquq şüurunun məntiqinin əksinə olaraq, əxlaqi şüurun məntiqi rasional xeyir və şər, yaxşı və pis habelə insan davranışında onların fərqləndirilməsi və bölgüsü ilə müəyyən olunur. Estetik şüurun məntiqi isə mütənasiblik və qeyri-mütənasiblik, habelə gerçəklikdə və fikrin özündə onların ifadəsinin adekvat vasitələrinin axtarışını əks etdirir. Düzgünlük və səhv, hüquqi münasibətlərin, hərəkətlərin, göstərişlərin və qiymətlərin bəzən həqiqilik və yalançılıq kimi rasional xarakteristikalara identik olmayan atributlarıdır. Əlbəttə, düzgünlük və səhvin məzmununa bu və ya digər sosial münasibətlərin və hərəkətlərin sosial təzahürlərin obyektiv vəziyyətinə, təbiətinə uyğun gəlib-

[10]O. G. Drobnitsky,''The structure of moral consciousness'', *Questions of Philosophy,* Moscow 1972, No. 2, p. 5-15.

gəlməməsi haqqında mülahizələr də daxildir. Lakin burada həmişə reallığın dəyər xarakteristikası, bu və ya digər hərəkətlərin və münasibətlərin, mövcud əxlaq və hüquq sisteminə, ictimai tələblərə cavab verib-verməməsinin müəyyənləşdirilməsi birinci dərəcəli əhəmiyyətə malikdir. Düzgünlük həm əxlaqi və hüququn normativ-tənzimləyici təbiətinin açıqlanmasının, həm də bu şüur formalarının dəyər yönümünün dərki kontekstində əxlaqi və hüquqi şüurun başlıca problemlərindəndir.

Əxlaqi və hüquqi şüurun yalnız formal cəhətinin deyil, konkret məzmununun vəhdət halında təsvir və təqdim edilməsi, əxlaqi və hüquqi şüurunun paradiqmaları tərəfindən müəyyən olunan "koordinatlar sistemi" çərçivəsində mümkündür. Paradiqmalar əsasında əxlaqi və hüquqi şüurun bütün ideyalarının vəhdəti formalaşır, onlar arasında məntiqi əlaqələr yaradılır, onların praktik təcəssümünün üsulları formalaşır. Əxlaqi və hüquqi şüurun paradiqmalarında aşağıdakılar əsas yer tutur: ümumbəşəri dəyərlər, bu şüur formalarının həqiqi əsasları və şərtləri, əxlaqı və hüququ dəyərlərin iyerarxiyalılığının nəzərə alınması əxlaqın və hüququn insanların çoxtərəfli fəaliyyətində yeri və rolunun düzgün müəyyənləşdirilməsi, hərəkət və davranışa görə məsuliyyət, hüquqi bərabərliyin real səciyyə daşıması və sair.

Nəzərə alınmalıdır ki, əxlaqi və hüquqi şüurun ideya-dəyər tənzimləyiciləri bilavasitə onun paradiqmaları ilə şərtlənir. Onlara, məsələn, şəxsiyyətin ləyaqəti, avtonomluğu, habelə təbii hüquq və əxlaq ideyası aiddir .[11]

Paradiqmalar əxlaqi və hüquq şüurun konkret-tarixi tipinin invariantlarıdır. Onlar əxlaq və hüquq fikrinin anlayış-ideya quruluşunun bütün kontekstlərini özünə tabe edir. Bu asılılığı ədalət ideyasının nümunəsində nümayiş etdirək. Ədaləti fəzilətlə nisbətdə götürüldükdə (əxlaqi aspekt), hüquqm qiymət və tələblərdə ənənəvi-mənəvi əsaslarının rolu artır. Bu səpki daha çox kütləvi əxlaqi və hüquqi şüur üçün səciyyəvidir. Həmin anlayışa mülkiyyət, yaxud dövlət səpkisində yanaşdıqda (iqtisadi-siyasi aspekt) pozitiv (siyasiləşdirilmiş) hüquq və əxlaq məqamları əsas götürülür. Ədalət anlayışını insanda əqli, rasional əsasın mövcudluğu ilə bağladıqda (hüquqi aspekt), hüququn konkret şəraiti, səbəbləri və tərəflərinin inkişafına meydan verilir. Bu həm müasir Qərb əxlaqi hüququ, həm də müsəlman əxlaqi və hüququ üçün daha səciyyəvidir. Nəhayət ədalət anlayışı qanun və qanunçuluq ilə əlaqələndirildikdə biz hüququn sırf yuridik aspekti – "hüquqçuların hüququ" ilə qarşılaşırıq. Bu məntiqin xarakterik inikası hüquqi pozitivizmdir. Ədalət həm də əxlaqın başlıca vasitəsi və təminatıdır.

[11]N.A. Bura, *On the essence of legal consciousness*, Kyiv. Nauk, Duma 1986, p. 85.

**Nəticə**

Əxlaqi və hüquq şüuru məntiqinin təsirinin nümunələri belə bir müddəanın doğruluğunu göstərir ki, əxlaqi və hüquq şüur yalnız reallığın inikası üsulu olmayıb, həm də insanlara, onların davranış və hərəkətlərinə dəyər, mənəvi, normativ istiqamətlər verir. Bəzən dünya və cəmiyyət üçün səhv olan elmi yanaşma məna, konkret insanın mövcudluğunun, onun əxlaqı və hüququnun adekvat dərkinin şərtinə çevrilir.[12] Yuxarıda deyilənlər göstərir ki, əxlaqi və hüquqi şüurun mənayaradıcı ideyaları əxlaqi-hüquq fəlsəfəsində və hüquqi şüurun inkişafında mühüm rol oynaır.

[12]Parviz Firudin Oqlu Kazimi, ''Democratic countries and ways of influencing the nature of information'', *Technium Social Sciences Journal,* 2021, p. 847.

## İstifadə Olunmuş Ədəbiyyat

ALEKSEEV, S.S., *Philosophy of law,* (?), Moscow 1997. (in Russian)

BURA, N.A., *On the essence of legal consciousness*, Kyiv. Nauk, Duma 1986. (in Russian)

DROBNITSKY , O. G., ‘’The structure of moral consciousness’’, *Questions of Philosophy,* Moscow 1972, No. 2, p. 5-15. (in Russian)

HAYEK, F., *Hüquqi qanunvericilik və azadlıq*, (?), Bakı 2000. (in Russian)

ILYIN, I.A., *On the essence of legal consciousness*, (?), Moscow 1994. (in Russian)

*Interaction of forms of social consciousness,* Ed. Chugaeva A.Ya, Moscow State University, Moscow 1964, p. 190. (in Russian)

KAZIMI , P. F. O., ISLAMOV, I. A. O., YUSIFOVA, G. Y. Q., "Philosophical view on information theory (The path from the divine to the digital world)", *Technium Social Sciences Journal,* 32, 2022, s. 724-730.

KAZIMI, P. F. O., ‘’Democratic countries and ways of influencing the nature of information’’, *Technium Social Sciences Journal,* 2021, p. 847-851.

KAZIMI, P. F. O. GULIYEVA, N. A. G. ‘’The concept of reliable information on the global network in times of crisis’’, *Technium Social Sciences Journal,* 30, 2022, p. 742-747.

LUKASHEVA, E. A., *Law, morality, personality,* (?), Moscow 1986. (in Russian)

SAMANDAROV, F.Y., *Legal awareness and criminal law creativity*, (?), Baku 1996.

SOLOVIEV, E. Yu., *Kant: complementarity of morality and law,* Nauka, Moscow 1992. (in Russian)